# “Bank Olmayan Kredit Təşkilatı “İnternational” Açıq Səhmdar Cəmiyyəti

*Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların*

## BAZA EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "Bank Olmayan kredit Təşkilatı "İnternational" Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Baza Emissiya Prospektinə daxil edilən bütün məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

Tarix-12.06.2025-ci il

**"Bank Olmayan kredit Təşkilatı "İnternational" ASC-nin**

**İdarə Heyətinin Sədri Həsənov Nicat Vaqif oğlu** ____________

**"Bank Olmayan kredit Təşkilatı "İnternational" ASC-nin**

**Baş mühasibi Əsgərov Mirabbas İsmayıl oğlu** ____________

## M Ü N D Ə R İ C A T

XÜLASƏ................................................................................................ 4
Xəbərdarlıq...............................................................................................4
Emitent haqqında məlumat.......................................................................4
Qiymətli kağızlar haqqında məlumat.........................................................6
Risk faktorları............................................................................................7
Təklif.........................................................................................................8
Emitentin auditorları barədə məlumat......................................................10
Seçilmiş maliyyə məlumat........................................................................10
Emitent barədə məlumat..........................................................................11
Emitentin biznesinin icmalı.......................................................................12
Digər təşkilatlarda iştirak..........................................................................13
Tendensiyalar barədə məlumat................................................................13
Gəlir proqnozu..........................................................................................13
Emitentin idarəetmə və nəzarət orqanları.................................................14
İdarə heyətinin işgüzar paktikası..............................................................15
Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər..........16
Emitentin maliyyə məlumatları.................................................................16
Emitent haqqında əlavə məlumatlar.........................................................22
İstiqrazlar barədə məlumat.......................................................................24

**Bakı-2025**

## XÜLASƏ

**1.Xəbərdarlıq.**

**1.1.** Bu sənəd baza emissiya prospektinin giriş hissəsidir;

**1.2.** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun baza emissiya prospektini oxuduqdan sonra həyata keçiriliməlidir;

**1.3.** Baza emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman baza emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

**2. Emitent haqqında məlumat**

**2.1. Emitentin tam adı: "**Bank Olmayan Kredit Təşkilatı "İnternational" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra emitent və ya BOKT "İnternational" ASC).

**2.2. Emitentin qısaldılmış adı**: "BOKT "İnternational" ASC.

**2.3. Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi**: 1002816161, 26.01.2013-cü il.

**2.4. Emitentin olduğu yer və təşkilati hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə**: Azərbaycan Respublikası, AZ 1110, Bakı ş., Nəriman Nərimanov, AK, Həsən Əliyev, ev 86A; Açıq Səhmdar Cəmiyyəti.

**2.5. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

BOKT "İnternational" ASC əsasən riteyl və mikro biznes kredit bazarında fəaliyyət göstərir.

Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən tendensiyalar valyuta riskləri və portfel keyfiyyəti BOKT "İnternational" ASC -də qənaətbəxş idarə olunur. Belə ki təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır.

BOKT "İnternational" ASC, strateji olaraq, kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirir. Diversifikasiya tədbirləri partnyor, region, sektor və digər meyarlar üzrə həyata keçirilir ki, bu da kredit portfelinin daha keyfiyyətli və risksiz idarə olunması üçün önəmlidir.

**2.6. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin digər hüquqi şəxslərdə mövqeyi mövcud deyil.

**2.7. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

**2.8. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Emitentin son maliyyə ili üzrə maliyyə hesabatları "Baker Tilly" audit şirkəti tərəfindən yoxlanılmışdır.

- **Audit şirkətinin adı:** "Baker Tilly" Azerbaijan QSC
- **Rəyin əhatə etdiyi dövr:** 1 yanvar 2024 – 31 dekabr 2024
- **Rəyin qısa təsviri:** Auditorun rəyinə əsasən, maliyyə hesabatları bütün mühüm aspektlər üzrə Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq ədalətli şəkildə təqdim olunmuşdur. Auditor rəyində "əsas audit məsələsi" kimi müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərərləri ehtiyatı qeyd edilmişdir. Xüsusilə, 31 dekabr 2024-cü il tarixinə müştərilərə verilmiş kreditlər

ümumi aktivlərin 83%-ni təşkil etmiş və bu səbəbdən onların qiymətləndirilməsi yüksək dərəcədə peşəkar mühakimə və proqnozlar tələb etmişdir. Auditor bu ehtiyatların qiymətləndirilməsində tətbiq olunan metodologiyanı və risklərin idarə edilməsi prosesini əhatəli şəkildə nəzərdən keçirmişdir.

**2.9. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlıumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

**Azərbaycan manatı ilə**

| Göstəricilər | 2024<br>Audit olunmuş | 2023<br>Audit olunmuş | 2022<br>Audit olunmuş |
|---|---|---|---|
| **Xalis mənfəət** | 4 820 580 | 2 792 098 | 1 530 034 |
| **Cəmi öhdəliklər** | 33 678 233 | 25 768 165 | 22 914 507 |
| **Cəmi kapital** | 11 858 334 | 10 339 040 | 6 046 942 |
| **Cəmi aktivlər** | 45 536 567 | 36 107 205 | 28 961 449 |
| **Kredit portfeli** | 37 960 091 | 30 280 111 | 24 602 159 |
| **Pul vəsaitləri** | 2 020 103 | 1 342 145 | 455 770 |

**Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişiklik olmamışdır.**

**2.10.Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

1.Emitentin ödəmə qabiliyyətinə təsir edən əsas faktor olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| **Göstəricilər** | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| PAR>30 (məbləğ) | 1 837 010 | 2 991 744 | 2 262 310 |

| | | | |
|---|---|---|---|
| PAR>30/Portfel (%) | 7% | 9.7% | 5.9% |

Emitentin ödəmə qabiliyyətinə təsir edən maliyyələşmə mənbələrini davamlı olaraq diversifikasiya edir. Belə ki, təşkilatın əsas maliyyələşmə mənbələri kapital, bank öhdəlikləri, istiqraz portfelidir.

- İqtisadi və siyasi sabitliyə təsir edən xarici və daxili hadisələr: Regional geosiyasi gərginlik, inflyasiya səviyyəsində mümkün artımlar və milli valyutanın məzənnəsində baş verə biləcək dəyişikliklər (devalvasiya) Emitentin maliyyə sabitliyinə və aktiv keyfiyyətinə birbaşa təsir göstərə bilər. Bu amillər müştəri ödəmə qabiliyyətinin azalmasına və kredit portfelinin risk səviyyəsinin yüksəlməsinə səbəb ola bilər.
- Emitentin Əsas Gəlir Mənbəyində Dəyişikliklər- Hesabat dövründə emitentin əsas gəlir mənbəyində – yəni müştərilərə təqdim olunan kreditlərdən əldə olunan faiz gəlirlərində – hər hansı əhəmiyyətli dəyişiklik (iri müqavilələrin itirilməsi və ya əldə olunması) baş verməmişdir. Gəlir mənbələri sabit qalmış, fəaliyyət mövcud biznes modeli çərçivəsində davam etdirilmişdir. Mövcud strateji tərəfdaşlıqlar qorunmuş və əlavə risk yaradacaq ölçüdə struktur dəyişikliyi müşahidə olunmamışdır.

**2.11.Emitentin əsas fəaliyyətlərinin təsviri:**

BOKT "İnternational" ASC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.
Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" ASC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;
- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**2.12.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xusisiyyətləri:**

BOKT "İnternational" ASC-nin nizamnamə kapitalının 100% 1 fiziki şəxsə məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının ümumi yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdar iştirak etdikdə səlahiyyətli sayılır.

**3. Qiymətli kağızlar haqqında məlumat**

**3.1. İstiqrazların növü:** faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;
**3.2. İstiqrazların valyutası:** Azərbaycan manatı;
**3.3. Tədavül müddəti:** 36 ay;
**3.4. İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:** Mövcud deyil;

**3.5. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 18 (on səkkiz) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.6. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 18% təşkil edir. İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 36 ay. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 30 gündən bir ödəniləcəkdir;

**3.7. İstiqrazların geri satın alınma şərtləri:** Tədavül müddəti ərzində istiqrazların geri satın alınması nəzərdə tutulmur.

**3.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir istiqrazın nominal dəyəri -100 (bir yüz) manat;

D- İstiqrazların illik gəlirlik dərəcəsi-18 (on səkkiz);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti –30 gün;

**3.9. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri . -** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra “Bakı Fond Birjası” QSC-nin (BFB) ticarət platformasında hərrac vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların ticarətə və listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən baza emissiya prospekti təsdiq edilib, hər bir buraxılış yekun şərtlərə əsasən dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş “Bakı Fond Birjasında qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi” Qaydalarına na əsasən həyata keçirilir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti” –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;

- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az
Tel: (+99412) 539 72 49
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

3.10. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı-** İstiqrazların mülkiyyətçisinin təmsilçisi mövcud deyil.

**4. Risk faktorları**

**4.1. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski- faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski- borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski- valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları**

- Kəskin devalivasiyanın olması - müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəyiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

**5. Təklif**

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Kredit məhsullarına tələbin artması fonunda emitent istiqraz buraxmaqla daha sərfəli şərtlərlə vəsait cəlb edib və əhalinin kredit tələblərini təmin etməklə öz mövqeyini qoruyub artırmağı nəzərdə tutub. Həmçinin təklifin səbəbi mənfəətin əldə edilməsidir;

**5.2. Təklifin şərtlərinin təsviri:**

İstiqrazlar "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında rəqabətli hərrac üsulu vasitəsilə yerləşdiriləcəkdir. Hərrac zamanı ilk növbədə investorlar tərəfindən təqdim edilən ən yüksək qiymətli sifarişlər təmin ediləcəkdir. İstiqrazların nominal dəyərindən 100 (bir yüz) manatdan aşağı qiymətə verilmiş sifarişlər təmin edilməyəcəkdir. Hərrac günündən gec olmayaraq, investorlar istiqrazların alınması üçün pul vəsaitlərini emitent tərəfindən "PAŞA Bank" ASC-də açılmış müvəqqəti cari hesaba köçürülməlidirlər.İstiqrazların dəyəri pul ilə

ödənilir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.icu.az) açıqlanır.

Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

Yerləşdirmənin başlanma tarixi: yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır.

Yerləşdirmənin başa çatma tarixi: Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat-**

*“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti*

Emissiya prosesində iştirak edən “Bakı Fond Birjası” QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti” –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

*Milli Depozit Mərkəzi*

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

qiymətli kağızların saxlanması və uçotunun aparılması;

qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və “Qiymətli kağızlar bazarı haqqında” Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

*Anderrayter*

“Paşa Kapital İnvestisiya Şirkəti” QSC 09 mart 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-640/2016 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar səhmləri depozitar sistemində saxlanılmağa qəbul edilməsi üçün komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

- əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin xidmət haqqısı: investisiya şirkəti ilə investor arasında bağlanmış müqaviləyə əsasən dəyişir;
- istiqraz alıcısının depo hesabı olmadığı təqdirdə “depo” hesab açılması üçün 10 manat (bu məbləğin 5 manatı MDM-in komissiyası, digər 5 manat isə investisiya şirkətinin komissiyası təşkil edir);
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**İstiqrazların emitenti barədə tələb olunan məlumatlar**

## 6. Emitentin auditorları barədə məlumat

### 6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| 2022 | “Baker Tilly Azərbaycan” MMC | 102a Cəlil Məmmədquluzadə küçəsi, Bakı 1022 | Mövcud deyil |
| 2023 | “Baker Tilly Azərbaycan” MMC | 102a Cəlil Məmmədquluzadə küçəsi, Bakı 1022 | Mövcud deyil |
| 2024 | “Baker Tilly Azərbaycan” MMC | 102a Cəlil Məmmədquluzadə küçəsi, Bakı 1022 | Mövcud deyil |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat-**dəyişiklik olmamışdır.

**7. Seçilmiş maliyyə məlumatı**

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri.**

**( Azərbaycan Manatı ilə)**

| Göstəricilər | 2024<br>Audit olunmuş | 2023<br>Audit olunmuş | 2022<br>Audit olunmuş |
|---|---|---|---|
| **Xalis mənfəət** | 4 820 580 | 2 792 098 | 1 530 034 |
| **Cəmi öhdəliklər** | 33 678 233 | 25 768 165 | 22 914 507 |
| **Cəmi kapital** | 11 858 334 | 10 339 040 | 6 046 942 |
| **Cəmi aktivlər** | 45 536 567 | 36 107 205 | 28 961 449 |
| **Kredit portfeli** | 37 960 091 | 30 280 111 | 24 602 159 |
| **Pul vəsaitləri** | 2 020 103 | 1 342 145 | 455 770 |

**8. Emitent barədə məlumat**

**8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması: “**Bank Olmayan Kredit Təşkilatı “İnternational” Açıq Səhmdar Cəmiyyəti.

**8.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri:**
VÖEN-1002816161, 26.01.2013-cü il.

**8.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi: “**Bank Olmayan Kredit Təşkilatı “İnternational” ASC 26.01.2013-cü il tarixində 1002816161 qeydiyyat nömrəsilə dövlət qeydiyyatına alınmış “ Bank Olmayan Kredit Təşkilatı “İnternational” MMC-nin hüquqi varisidir. Dəyişikliyin dövlət qeydiyyat tarixi- 10.01.2019-cu il. 30.12.2022-ci il tarixində “Bank Olmayan Kredit Təşkilatı “İnternational” QSC növünü dəyişdirərək “Bank Olmayan Kredit Təşkilatı “İnternational” ASC kimi yenidən dövlət qeydiyyatına alınmışdır.

**8.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvanı- Azərbaycan Respublikası, AZ 1110, Bakı ş., Nəriman Nərimanov, AK, Həsən Əliyev, ev 86A

Faktiki ünvanı: Bakı ş., Nəriman Nərimanov rayonu, M.K. Atatürk pr. 2A;

Telefon: (+994 12) 1543

İnternet səhifəsi: www.icu.az
Elektron poçt ünvanı: info@icu.az

**8.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən investisiya olmamışdır.

**8.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri mövcud deyil.

**8.7. Emitentin qiymətli kağzlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az
Tel: (+99412) 539 72 49
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 9. Emitentin biznesinin icmalı

**9.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətinin təsviri:**

"BOKT "İnternational" ASC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.

Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" ASC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;
- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

*Azərbaycan manatı ilə*

| Göstərilmiş xidmətlər | 2024 (Audit olunmuş) | 2023 (Audit olunmuş) | 2022(Audit olunmuş) |
|---|---|---|---|
| Kreditlərin verilməsi | 82 553 506 | 60 727 906 | 51 669 458 |

**9.2. Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:** yeni xidmətlər təqdim olunmamışdır.

**9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

Emitent, əsas fəaliyyətini yalnız Azərbaycan Respublikasında həyata keçirir. Təşkilat, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə kreditlər vermək, istehlak kreditləri təklif etmək və maliyyə xidmətləri göstərmək kimi fəaliyyətlə məşğuldur.

Emitent, Azərbaycan bazarında fəaliyyət göstərən digər bank olmayan kredit təşkilatları və banklarla rəqabət aparır. Rəqabət üstünlüyü müştəri ehtiyaclarına uyğun məhsul və xidmətlərin çevik şəkildə təqdim edilməsindən, eləcə də regionlarda geniş fəaliyyətdən ibarətdir.

**9.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması-** Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

**10. Digər təşkilatlarda iştirak**

**10.1. Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** Emitentin digər hüquqi şəxslərdə iştirakı mövcud deyil.

**10.2. Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi-**

Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

**11. Tendensiyalar barədə məlumat**

**11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin baza emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində baza emissiya prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Emitent ticari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi kredit təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

**12. Gəlir proqnozu-** gəlir proqnozu mövcud deyil;

**13. Emitentin idarəetmə və nəzarət orqanları**

## 13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:

**Səhmdarların Ümumi Yığıncağı**

| Səhmdarın adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Həsənov Rifat Vaqif oğlu | Azərbaycan Respublikası | 10000 ədəd | 100 % |

**Emitentin Müşahidə Şurası barədə məlumat:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Həsənov Rifat Vaqif oğlu | Müşahidə Şurasının sədri | Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək; Şuranın rüblük planlarını, iclas protokollarını və qəbul olunmuş qərarlarını imzalamaq və s. |
| Abdullayev Hikmət Fikrət oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |
| Allahverdiyev Aqşin İsa oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |

**Emitentin İdarə Heyəti barədə məlumat:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Həsənov Nicat Vaqif oğlu | İdarə Heyətinin Sədri | Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır. fəaliyyətinə cari rəhbərlik edir; İşçilərin işə qəbul və |

| | | |
|---|---|---|
| | | işdən azad olunması ilə bağlı qərarlar qəbul edir; və s. |

**13.1.1. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

**14. İdarə heyətinin işgüzar praktikası**

**14.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

Audit Komitəsinin Sədri- Həsənov Rifat Vaqif oğlu;
Audit komitəsinin üzvü- Abdullayev Hikmət Fikrət oğlu;
Audit Komitəsinin üzvü- Allahverdiyev Aqşin İsa oğlu.

Audit Komitəsi tərəfindən görülən işlərin icmalı: Daxili nəzarət sistemlərinin effektivliyinin və adekvatlığının yoxlanılması və qiymətləndirilməsi;
Risklərin idarəedilməsi metodologiyasının tətbiqinin və effektivliyinin təhlili;
Elektron informasiya və ödəniş sistemləri və cəmiyyət xidmətləri daxil olmaqla, maliyyə və idarəedici informasiya sistemlərinin təhlili;
Mühasibat yazılarının və maliyyə hesabatlarının dəqiqliyinin və etibarlılığının yoxlanılması;
Aktivlərin qorunması vasitələrinin təhlili;
Risk ehtimalı ilə əlaqədar kapitalının qiymətləndirilməsi sisteminin təhlili;
Fəaliyyətlərin səmərəliliyinin və xərclərin effektivliyinin (qiymət baxımından sərfəlilik) qiymətləndirilməsi;
Spesifik daxili nəzarət və əməliyyat prosedurlarının işləməsinin yoxlanılması;
Qaydaların və prosedurların həyata keçirilməsini, qanunvericiliyə və daxili davranış məcəllərinə (etika qaydalarına) riayət olunmasını təmin edən sistemlərin təhlili;
Korporativ idarəetmə ilə bağlı şirkətin siyasətinin və strateji hədəflərinin tətbiqi;
Auditin nəticələrinə dair hesabatların hazırlanması;
Normativ-hüquqi sənədlərlə tələb olunan hesabatların etibarlılığının və vaxtlı-vaxtında hazırlanmasının yoxlanılması;
Keçirilən audit yoxlamasına əsasən hesabat hazırlayaraq şirkət rəhbərliyinə təqdim edilməsi.

Mükafatlandırma komitəsi-mövcud deyil.

**14.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda**

**bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

**15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər**

**15.1. Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Həsənov Rifat Vaqif oğlu | Azərbaycan Respublikası | 10000 ədəd | 100 % |

**15.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:**
Mühüm iştirak payının sahibi Emitentə nəzarət emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir.
Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan İştirakçılar iştirak etdikdə səlahiyyətli sayılır. Ümumi yığıncaqlar arası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti səhmdarların ümumi yığıncağı tərəfindən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

**15.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

**16. Emitentin maliyyə məlumatları**

**16.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları-**

**Maliyyə Vəziyyəti Haqqında Hesabat**

*Azərbaycan manatı ilə*

**BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

**31 DEKABR 2024, 2023, 2022-Cİ İL TARİXİNƏ (Audit olunmuş)**

(Azərbaycan manatı ilə)

| | 31 dekabr 2024-ci il | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|

**AKTİVLƏR:**

| | | | |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,020,103 | 1,342,145 | 455,770 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 37,960,091 | 30,280,111 | 24,602,159 |
| İnvestisiya mülkiyyəti | 1,789,163 | 1,789,163 | - |
| Əmlak və avadanlıqlar | 823,886 | 678,456 | 584,760 |
| Qeyri-maddi aktivlər | 112,030 | 57,549 | 45,486 |
| İstifadə hüququ olan aktivlər | 2,141,812 | 1,661,895 | 1,540,191 |
| Səhmdarla hesablaşmalar | - | - | 1,500,000 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 362,865 | 223,466 | 211,221 |
| Digər aktivlər | 326,617 | 74,420 | 21,862 |
| | | | |
| **Cəmi aktivlər** | **45,536,567** | **36,107,205** | **28,961,449** |

**ÖHDƏLİKLƏR VƏ KAPİTAL**

| | | | |
|---|---|---|---|
| **ÖHDƏLİKLƏR:** | | | |
| | | | |
| Borc alınmış vəsaitlər | 15,198,812 | 10,401,793 | 5,587,655 |
| Buraxılmış borc qiymətli kağızları | 13,196,163 | 11,503,416 | 15,020,223 |
| İcarə öhdəlikləri | 2,340,040 | 1,804,632 | 1,673,900 |
| Vergi öhdəliyi | 819,026 | 344,368 | 326,481 |
| Digər öhdəliklər | 2,124,192 | 1,713,956 | 306,248 |
| | | | |
| **Cəmi öhdəliklər** | **33,678,233** | **25,768,165** | **22,914,507** |
| | | | |
| **KAPİTAL:** | | | |
| | | | |
| Nizamnamə kapitalı | 8,000,000 | 8,000,000 | 5,000,000 |
| Bölüşdürülməmiş mənfəət | 3,858,334 | 2,339,040 | 1,046,942 |
| | | | |
| **Cəmi kapital** | **11,858,334** | **10,339,040** | **6,046,942** |
| | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **45,536,567** | **36,107,205** | **28,961,449** |

## Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat

*Azərbaycan manatı ilə*

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**

**31 DEKABR 2024, 2023, 2022-Cİ İL TARİXİNƏ**

(Azərbaycan manatı ilə)

| | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|---|
| | | | |
| Faiz gəlirləri | 17,827,749 | 14,664,407 | 11,541,758 |
| Faiz xərcləri | (3,872,936) | (3,280,309) | (2,853,651) |
| | | | |
| **Xalis faiz gəliri** | **13,954,813** | **11,384,198** | **8,688,107** |
| | | | |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin tutulması | (45,649) | (848,050) | (891,896) |
| | | | |
| **Xalis faiz gəliri** | **13,909,164** | **10,536,148** | **7,796,211** |
| | | | |
| Haqq və komissiya gəliri | 323,803 | 275,815 | 253,508 |
| Haqq və komissiya xərci | (96,885) | (120,804) | (101,957) |
| | | | |
| **Xalis faiz gəliri** | **226,918** | **155,011** | **151,551** |
| | | | |
| İnsanları üzrə xərclər | (4,235,118) | (3,892,537) | (3,209,902) |
| İnzibati və əməliyyat xərcləri | (3,956,705) | (3,332,925) | (2,775,132) |
| Digər gəlirlər | 82,812 | 63,161 | 10,730 |
| | | | |
| **Mənfəət vergisindən xərcindən əvvəlki mənfəət** | **6,027,071** | **3,528,858** | **1,973,458** |
| | | | |
| Mənfəət vergisi xərci | (1,206,491) | (736,760) | (443,424) |
| | | | |
| **İl üzrə xalis mənfəət** | **4,820,580** | **2,792,098** | **1,530,034** |
| | | | |
| **İl üzrə cəmi məcmu gəlir** | **4,820,580** | **2,792,098** | **1,530,034** |

**BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**KAPİTALDA DƏYİŞİKLƏR HAQQINDA HESABAT**

**31 DEKABR 2024-CÜ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

(Azərbaycan manatı ilə)

| | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş Mənfəət** | **Cəmi** |
|---|---|---|---|

| | | | kapital |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | **5,000,000** | **1,046,942** | **6,046,942** |
| **Nizamnamə kapitalının artırılması** | **3,000,000** | | **3,000,000** |
| İl üzrə cəmi məcmu gəlir | - | 2,792,098 | 2,792,098 |
| Elan edilmiş dividend | - | (1,500,000) | (1,500,000) |
| | | | |
| **31 dekabr 2023-cü il** | **8,000,000** | **2,339,040** | **10,339,040** |
| | | | |
| İl üzrə cəmi məcmu gəlir | - | 4,820,580 | 4,820,580 |
| Elan edilmiş dividendlər | - | (3,301,286) | (3,301,286) |
| | | | |
| **31 dekabr 2024-cü il** | **8,000,000** | **3,858,334** | **11,858,334** |

**BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**KAPİTALDA DƏYİŞİKLƏR HAQQINDA HESABAT**

**31 DEKABR 2023-CÜ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

(Azərbaycan manatı ilə)

| | **Nizamnamə kapitalı** | **Yığılmış zərər** | **Cəmi kapital** |
|---|---|---|---|
| **1 yanvar 2022-ci il** | **5,000,000** | **384,051** | **5,384,051** |
| | | | |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,530,034 | 1,530,034 |
| Nizamnamə kapitalında artım | - | (867,143) | (867,143) |
| | | | |
| **31 dekabr 2022-ci il** | **5,000,000** | **1,046,942** | **6,046,942** |
| | | | |
| Nizamnamə kapitalında artım | 3,000,000 | - | 3,000,000 |
| İl üzrə cəmi məcmu gəlir | - | 2,792,098 | 2,792,098 |
| Elan edilmiş dividendlər | - | (1,500,000) | (1,500,000) |
| | | | |
| **31 dekabr 2023-cü il** | **8,000,000** | **2,339,040** | **10,339,040** |

**BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**KAPİTALDA DƏYİŞİKLƏR HAQQINDA HESABAT**

**31 DEKABR 2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

(Azərbaycan manatı ilə)

| | Nizamnamə kapitalı | Bölüşdü-rülməmiş mənfəət/(zərər) | Cəmi kapital |
|---|---|---|---|
| | | | |
| **1 yanvar 2021-ci il** | **3,000,000** | **(26,502)** | **2,973,498** |
| | | | |
| İl üzrə cəmi məcmu gəlir | - | 410,553 | 410,553 |
| Nizamnamə kapitalında artım | 2,000,000 | - | 2,000,000 |
| | | | |
| **31 dekabr 2021-ci il** | **5,000,000** | **384,051** | **5,384,051** |
| | | | |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,530,034 | 1,530,034 |
| Elan edilmiş dividendlər | - | (867,143) | (867,143) |
| | | | |
| **31 dekabr 2022-ci il** | **5,000,000** | **1,046,942** | **6,046,942** |

**BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

**31 DEKABR 2024,2023, 2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ**

(Azərbaycan manatı ilə)

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə (yenidən qiymətləndiril-miş) |
|---|---|---|---|
| | | | |
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | 6,027,071 | 3,528,858 | 1,973,458 |
| | | | |
| **Nağdsız və qeyri-əməliyyat maddələri üzrə düzəlişlər:** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar üzrə ehtimal olunan kredit zərərlərinin tutulması | 45,649 | 848,050 | 891,896 |
| Köhnəlmə və amortizasiya xərci | 1,162,666 | 921,141 | 742,771 |
| İstifadə olunmamış məzuniyyət ehtiyatında dəyişiklik | 123,261 | 234,534 | 36,633 |
| Hesablanmış faiz üzrə xalis dəyişiklik | 286,697 | 259,559 | (193,141) |
| Əsas vəsait satışından yaranan gəlir | (36,716) | (59,700) | |
| İcarə öhdəliklərinin ləğv edilməsindən yaranan gəlir | (46,096) | (3,461) | (10,730) |

| | | | |
|---|---|---|---|
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər:** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | (7,793,660) | (6,612,245) | (7,532,338) |
| Digər aktivlər | (141,294) | (44,058) | (3,565) |
| Vergi öhdəlikləri | 8,583 | (100,790) | (744) |
| Digər öhdəliklər | 728,575 | 202,994 | 10,037 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş pul vəsaitləri** | **364,736** | **(825,118)** | **(4,085,723)** |
| | | | |
| Ödənilmiş mənfəət vergisi | (879,815) | (630,328) | (369,176) |
| | | | |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(515,079)** | **(1,455,446)** | **(4,454,899)** |
| | | | |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| İnvestisiya mülkiyyəti üzrə ödənişlər | (441,600) | (818,983) | |
| Əmlak və avadanlıqlar üzrə ödənişlər | (699,239) | (421,242) | (282,528) |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | (64,670) | (28,500) | - |
| Əmlak və avadanlıqların satışından daxil olmalar | 165,248 | 59,700 | - |
| | | | |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(1,040,261)** | **(1,209,025)** | **(282,528)** |
| | | | |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Cəlb olunmuş vəsaitlər üzrə daxilolmalar | 12,095,800 | 17,096,042 | 4,536,367 |
| Cəlb olunmuş vəsaitlərin ödənilməsi | (7,319,700) | (12,308,032) | (5,741,847) |
| Buraxılmış istiqrazlardan daxilolmalar | 8,801,000 | 4,283,005 | 9,074,000 |
| Buraxılmış istiqrazların ödənilməsi | (7,306,000) | (7,947,000) | (690,000) |
| İcarə öhdəliyinin əsas hissəsinin ödənilməsi | (736,516) | (573,169) | (320,871) |
| Səhmdarlara ödənilmiş dividendlər | (3,301,286) | - | (867,143) |
| Səhmdara ödənilmiş digər vəsaitlər | | - | (1,500,000) |
| Nizamnamə kapitalındakı artım | | 3,000,000 | - |
| | | | |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **2,233,298** | **3,550,846** | **4,490,506** |
| | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | **677,958** | **886,375** | **(246,921)** |
| | | | |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | **1,342,145** | 455,770 | 702,691 |
| | | | |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | **2,020,103** | 1,342,145 | 455,770 |

**16.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** emitent bir ildən çox müddət ərzində fəaliyyət göstərir;

**16.3. Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir:** emitent yeni yaradılmış hüquqi şəxs deyil;

**16.4. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

**16.5. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı mövcud deyl.

**16.6. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir**- Emitent tərəfindən, son audit edilmiş maliyyə hesabatlarından sonra əlavə olaraq rüblük və ya yarımillik maliyyə hesabat dərc edilməmişdir.

**16.7. Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir-** Emissiya prospekti, audit olunmuş son maliyyə hesabatının tarixindən doqquz ay keçməmiş müddətdə tərtib olunduğundan, yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatının prospektə əlavə edilmir.

**16.8. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) : Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proses mövcud deyil.**

**16.9. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** dəyişikliklər baş verməmişdir.

**17. Emitent haqqında əlavə məlumatlar**

**17.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu;:**
Nizamnamə Kapitalının ümumi məbləği 10 000 000 manat həcmindədir və hər biri 1000 (bir min) manat olmaqla, 10 000 ədəd adi, sənədsiz, adlı səhmdən ibarətdir.
Adi səhmlər aşağıdakı hüquqlara malikdir:

Emitentin adi səhminin mülkiyyətçisinin qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardı:

- cəmiyyətin idarə edilməsində Mülki Məcəllə, digər qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

- cəmiyyətin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;cəmiyyətin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək (bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və onun protokolunun surətini tələb etmək;
- cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- cəmiyyətin xalis mənfəətindən dividend almaq;
- cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- icra orqanının və direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin səhlənkarlığına və səhmdar cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;
- cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək;
- bağlanmış əqd nəticəsində cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;
- bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq
- Mülki Məcəllədə və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

**17.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin Nizamnaməsinin son redaksiyası 31.07.2023-cü il tarixində AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**17.2.1. Fəaliyyət və məqsədlərin təsviri:** “BOKT “İnternational” ASC lisenziyasında qeyd edilmiş fəaliyyət növləri ilə yanaşı, həmçinin, Azərbaycan Respublikasının qanunvericiliyi iə qadağan edilməyən müxtəlif fəaliyyət növləri ilə məşğul ola bilər. Emitentin məqsədi- mənfəətin əldə edilməsi ilə yanaşı, peşəkar yanaşma və yüksək etibarlılıq sayəsində mikro kreditləşmə bazarında yüksək standartlara uyğun bir Şirkət olmaqdır.

**17.2.2. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:**

Emitentin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- Emitentin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin icra orqanını yaratmaq və onunu səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Emitentin Müşahidə Şurasının və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Emitentin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;
- Mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;

- Süsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Emitentin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir.
- Emitentin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;
- AR Mülki Məcəlləsinə əsasən müəyyən edilmi digər səlahiyyətlər.

Müşahidə Şurasının funksiyaları-

- Müşahidə Şurası 50 000 manatdan və ya onun ekvivalentində digər valyuta ilə kreditlərin verilməsinə razılıq verir.
- Müşahidə Şurası AR Mülki Məcəlləsinin 40-1-ci maddəsinin tələblərinin icrasına nəzarət edir və özü həmin tələblərə əməl edir.
- Qanunla nəzərədə tutulmuş hallarda BOKT-nin digər kredit təşkilatının kapitalında bu və ya digər üsulla iştirakı barədə qərar qəbul edə bilər;
- Qanunla müəyyən edilmiş qaydada səhmdarların ümumi yığıncağının çağırılması barədə qərar qəbul edə bilər;
- Müşahidə Şurası qanunla və Ümumi yığıncağın qərarı ilə müəyyən edilmiş hüquqlara malik olur və vəzifələri icra edir.

İdarə Heyətinin funksiyaları

- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik və onun işlərinin aparılması onun kollegial icra orqanı olan İdarə Heyəti tərəfindən həyata keçirilir.
- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;
- Səhmdarların Ümumi Yığıncağının və digər orqanlarının müstəsna səlahiyyətlərinə aid olan məsələlərdən başqa, digər bütün məsəslələri həll edir;
- Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır;
- Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, Ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;
- Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, Cəmiyyətin daxili əmək intizamı qaydalarına və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb edir;
- Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər (sərəncamlar) verir;
- Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq edir;
- Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

**17.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat: Emitentin bu cür müqavilələri** mövcud deyil.

**18. İstiqrazlar haqqında ümumi məlumat**

**18.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**18.2. Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat: təklif edilən istiqrazların reytinqi** mövcud deyil.

**18.3. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda)-**istiqrazların əldə edilməsi üçün məhdudiyyət mövcud deyil.

**18.4. İstiqrazlar üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən verginin tutulması barədə emitentin öhdəliyi:**
İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur.
AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**18.5. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat- Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat** mövcud deyil.

**19. İstiqrazlar haqqında məlumat**

**19.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz;

**19.2. İstiqrazların valyutası:** Azərbaycan manatı;

**19.3. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər:**

**İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:**

a) İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;

b) İstiqrazın nominal dəyərindən illik 18 (on səkkiz) faiz olmaqla istiqrazın tədavül müddəti ərzində faiz almaq;

c) Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

d) Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

Məhdudiyyətlər mövcud deyil.

**19.4. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**19.5.** İstiqrazlar üzrə ödənilməli faizlər: illik 18 (on səkkiz) faiz;

**19.6. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşaiyət olunmur.

**19.7. İstiqrazların geri satın alınmasının şərtləri:** Tədavül müddəti ərzində istiqrazların geri satın alınması nəzərdə tutulmur.

**19.8. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası.**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:
TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri -100 (bir yüz) manat;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -18 (on səkkiz);

G-istiqrazların faiz ödəniş dövrünün müddəti – 30 gün.

**19.9. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** İnvestorları təmisl edən təşkilat mövcud deyil.